BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ

BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE



"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".

Heydər Əliyev



"Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir... Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir".

İlham Əliyev

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİNİN YARADILMASI HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılsın.

2. "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xərclər smetasını və ştat cədvəlini, işçilərinin say həddini, icraçı direktorunun və işçilərinin aylıq vəzifə maaşlarını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin binasının tikilməsi barədə təklifləri iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətinin təşkili ilə bağlı zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

3.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dövlət qeydiyyatına alınmasını bir ay müddətində təmin etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 15 may 2014-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ

# İLHAM ƏLİYEVİN

MULTİKULTURALİZM
HAQQINDA FİKİRLƏRİ



**İLHAM ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

"Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Eyni zamanda bu bizim həyat tərzimizdir".

"Multikulturalizm nisbətən yeni və bəzən çətin tələffüz edilən termin olmasına baxmayaraq, multikulturalizm ideyaları hər zaman ölkəmizdə mövcud olmuşdur".

"Tarixi dönəmdən və siyasi sistemdən asılı olmayaraq, xalqımız hər zaman istər ölkədə, istərsə də onun hüdudlarından kənarda multikulturalizmi fəal müdafiə və təşviq etmişdir".

# BBMM-in MƏQSƏDİ, VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdan və mövcud multikultural modelləri tədqiq və təşviq edən qeyri-kommersiya qurumu olan hüquqi şəxsdir.

Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Mərkəzin Nizamnaməsini rəhbər tutur.

Mərkəz Nizamnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət, yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri, yerli və xarici təşkilatlarla, ictimai və beynəlxalq qurumlarla qarşılıqlı fəaliyyət göstərir.

Mərkəzin müstəqil balansı, xəzinə və bank hesabları, istifadəsində olan dövlət əmlakı, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, ştamp və blankları vardır.

Mərkəzin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti və Nizamnamədə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

Mərkəz Bakı şəhərində yerləşir.

Mərkəz illik fəaliyyətinin nəticələri barədə Azərbaycan Respublikasının Prezidentinə hesabat təqdim edir.

# Mərkəzin əsas məqsədi və vəzifələri

Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək Mərkəzin əsas məqsədidir.

Mərkəzin əsas vəzifələri aşağıdakılardır:

- Multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətini öyrənmək və təbliği mexanizmini hazırlamaq;
- Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib gerçəkləşdirmək;
- Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilini aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək;
- Müxtəlif bölgələrə aid mədəni irsi öyrənmək, onların müasir dövrdə ahəngdar inkişafının təmin edilməsinə, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək vermək;
- Multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsini öyrənmək və təşviq etmək;
- Aidiyyəti elmi qurumlarla əlaqəli şəkildə Azərbaycan Respublikasının müxtəlif bölgələrində qədim mədəniyyət izlərini axtarmaq (arxeoloji tədqiqatları "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının

Qanununa uyğun olaraq təşkil etmək), mədəni, etnoqrafik irsin toplanıb elmi şəkildə öyrənilməsini və qorunmasını həyata keçirmək;

• Təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə özünü göstərən, şəxsiyyətin mənəvi bütövlüyünün həmahəng inkişafına mane olan müəyyən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələr gerçəkləşdirmək;

• Müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirmək;

• Azərbaycan Respublikasının multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğini təmin etmək;

• Şəxsiyyətin saflaşmasında, xalqlararası, dinlərarası qarşılıqlı hörmət və etimad münasibətlərinin yaranmasında xüsusi xidməti olan görkəmli yerli və xarici ölkə vətəndaşlarının qiymətləndirilməsi, təşviq edilməsi mexanizmini hazırlayıb həyata keçirmək;

• Multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrini təhlil etmək və yaymaq;

Mərkəzin Nizamnaməsinə uyğun olaraq digər vəzifələri yerinə yetirmək.

# Mərkəzin hüquqları

Mərkəz öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

• Dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

• Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallar açmaq və nümayəndəliklər yaratmaq;

• Dövlət və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslərlə əməkdaşlıq etmək;

• "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, beynəlxalq əməkdaşlığı həyata keçirmək;

• Məqsədinə uyğun sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

• Müstəqil ekspertləri və mütəxəssisləri komissiyalar şəklində öz işinə cəlb etmək, təhlillər, tədqiqatlar və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

• Məqsədinə uyğun kurslar, seminarlar, dəyirmi masalar, görüşlər, sərgilər, müsabiqələr təşkil etmək, festivallar, konfranslar, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər keçirmək;

• Məqsəd və fəaliyyəti barədə məlumatı sərbəst yaymaq, kütləvi informasiya vasitələri, o cümlədən virtual məkanda televiziya proqramları və müvafiq internet saytları yaratmaq və s.

# Azərbaycan multikulturalizmi modeli

Mahiyyət etibarilə multikulturalizm fərqliliklərin bir arada mövcud olması, cəmiyyətdə birgəyaşayışı diktə etməsi və zənginliklərin vəhdəti deməkdir. Bu termin siyasi leksikona ilk dəfə 1970-ci ildə Avstraliyada miqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilib. O, anqlosaksonlarla yeni avstraliyalılar arasındakı nifaqın aradan qaldırılmasına səy göstərib. Amma Avstraliyadan da əvvəl Kanadada multikultural cəmiyyətin formalaşması prosesi 1960-cı illərə təsadüf edib. Kanada hökuməti əhalinin irqi, etnik və konfessional müxtəlifliyini qəbul edirdi ki, bu da cəmiyyətin əsas milli xüsusiyyətinə çevrilmişdi. Azərbaycanda isə multikulturalizmin tarixi çox qədimdir. Bu tarix Avropa ölkələrini xeyli qabaqlayır. Termin olaraq multikulturalizm Azərbaycanın ictimai-siyasi fikir tarixinə yeni daxil olsa da, ona qədər biz bu anlayışa mədəni müxtəliflik kimi yanaşmışıq. Müasir dövrdə multikulturalizm Azərbaycan cəmiyyətinin sosial-mədəni münasibətlər sisteminin daxili təbii tələbatının əsas komponentlərindən birini təşkil edir.

Azərbaycanda multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətinə çevrilməsi, sadəcə, müəyyən dövrü əhatə edən bir kampaniya deyil. Bu, dövlətimizin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasətidir. Bu siyasətin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən ötən əsrin 90-cı illərində qoyulmuşdur. Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu siyasəti uğurla davam və inkişaf etdirir.

Dövlət başçısının 4 noyabr 2008-ci il tarixli sərəncamı ilə həmin il dekabrın 2-3-də Bakıda keçirilən Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransında sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyuldu. 2009-cu ildə paytaxtımızda baş tutan İslam Əməkdaşlıq Təşkilatı mədəniyyət nazirlərinin toplantısında dinlərarası barışığa, harmoniyaya, sivilizasiyalararası dialoqa dəstək siyasəti öz təsdiqini tapdı. Mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi"nin davamı olaraq, dövlət başçısı İlham Əliyevin dəstəyi ilə 2011-ci ilin aprelində Bakıda "Ümumdünya Mədəniyyətlərarası dialoq Forumu"nun keçirilməsi təşəbbüsü irəli sürüldü. Bu sahədə fəaliyyət göstərmək üçün mühüm dövlət qurumlarının yaradılması da təsadüfi deyil. 2014-cü ildə ölkə başçısının Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət Müşaviri Xidməti təsis edildi. Dövlət müşaviri vəzifəsinə akademik Kamal Abdullayev təyin olundu. Həmin ilin may ayında isə Prezidentin Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. 2016-cı il Azərbaycanda "Multikulturalizm ili", 2017-ci il isə "İslam həmrəyliyi ili" elan olundu. 2018-ci ildə ölkə başçısının Sərəncamı ilə Prezident Administrasiyasında Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi yaradıldı, professor Etibar Nəcəfov həmin şöbənin müdiri təyin olundu. Dünyanın gələcəyi baxımından Azərbaycanın multikultural dəyərlərinin, tolerantlıq ənənələrinin təbliği və təşviqi ilə əlaqədar bu günə qədər görülən və gələcəkdə görüləcək işlərin əhəmiyyəti çox böyükdür. Çünki bu kimi tədbirlərin həyata keçirilməsi nəticəsində dünya ictimaiyyəti Azərbaycan həqiqətləri ilə daha yaxından tanış olur. Belə bir vəziyyətdə Azərbaycandakı multikulturalizm, tolerantlıq nümunə kimi görünür.








5 illik yubiley tədbiri







BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ

BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

# BBMM-in
# HİMAYƏÇİLƏR ŞURASI
# və
# FİLİALLAR

## Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının üzvləri



Kamal Mehdi oğlu Abdullayev

*Azərbaycan Dillər Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü, Xalq yazıçısı, BBMM-in Himayəçilər Şurasının sədri*



Leyla İlham qızı Əliyeva

*Heydər Əliyev Fondunun vitse-prezidenti, Heydər Əliyev Fondunun Rusiya filialının rəhbəri*



Etibar Əli oğlu Nəcəfov

*Prezident Administrasiyası Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor*



Rəvan Vaqif oğlu Həsənov

*BBMM-in icraçı direktoru, Mərkəzin Himayəçilər Şurasının sədr müavini*



Akif Ağamehdi oğlu Əlizadə

*Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti*



Firəngiz Əliağa qızı Əlizadə

*Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti*



Tahir Teymur oğlu Salahov

*Azərbaycan Dövlət mükafatları laureatı, SSRİ Xalq rəssamı*



Aleksandr Şarovski

*Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissoru, Xalq artisti*



Mixail Zabelin

*Azərbaycanın Rus İcmasının sədri, millət vəkili*



Əbdüləziz bin Osman əl-Tüveycri

*İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESKO) baş direktoru*



Koiçiro Matsuro

*UNESKO-nun (1999–2009) səkkizinci baş direktoru*

# Filiallar

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkələrdə 9 filialı fəaliyyət göstərir. Bu filiallar Azərbaycanın multikulturalizm siyasətinin xarici ölkələrdə təbliği işinə xidmət edir.

BBMM-in xarici ölkələrdə fəaliyyət göstərən filiallarının rəhbərləri



Janna Skot
*ABŞ filialı*
*(26 fevral 2018)*



Arye Qut
*İsrail filialı*
*(3 may 2017)*



Aleksandr Nesterov
*Rusiya filialı*
*(10 mart 2017)*



Eliza Nikolova
*Bolqarıstan filialı*
*(14 noyabr 2017)*



Birgit Vaysgerber
*Almaniya filialı*
*(22 yanvar 2017)*



Sandro Teti
*İtaliya filialı*
*(15 mart 2017)*



Teresa Damasio
*Portuqaliya filialı*
*(15 fevral 2017)*



Aurelia Qriqoriu
*Moldova filialı*
*(4 may 2017)*



Lyudmila Bejenaru
*Rumıniya filialı*
*( 16 may 2019)*

BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ

BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

# BBMM-in LAYİHƏLƏRİ

# Xaricdə tədris

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsini 2015-ci ildən həyata keçirir. Hazırda Azərbaycan Respublikasının 38, dünyanın 19 aparıcı universitetində (Bolqarıstan, Rusiya, Çexiya, Litva, Almaniya, İndoneziya, Gürcüstan, Portuqaliya, Polşa, Türkiyə, İtaliya, İsveçrə, Almaniya, Belarus, Ukrayna, İsveç, Yaponiya, Hindistan, Rumıniya) "Azərbaycan multikulturalizmi" fənni tədris olunur.

Bu layihəyə BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin ideya və təşəbbüsü ilə "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri üzrə tədris proqramları Təhsil Nazirliyində təsdiq olunduqdan sonra start verilib. Artıq fənnin tədrisində tutarlı təcrübə əldə olunub.

2018-ci ilin dekabrında ingilis dilində işıq üzü görmüş "Azərbaycan multikulturalizmi" dərsliyinin istifadəsi tədrisin keyfiyyətinin yeni mərhələyə yüksəlməsini təmin edib. 2019–2020-ci tədris ilindən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq göstərişi ilə "Multikulturalizmə giriş" fənni ölkəmizin bütün ali təhsil ocaqlarının bakalavr pilləsində əsas fənn kimi tədris olunacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünün gerçəkləşməsi məqsədilə BBMM-in ardıcıl və məqsədyönlü fəaliyyəti nəticəsində xaricdə "Azərbaycan multikulturalizmi" fənninin tədrisi daha geniş coğrafiyanı əhatə etməkdədir.




Litva Pedaqoji Universiteti (Litva)



Уральский федеральный университет имени первого Президента России Б.Н.Ельцина

Ural Federal Universiteti
(Rusiya)



Belarus Dövlət Universiteti
(Belarus)

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti (Gürcüstan)



SOFIA UNIVERSITY
ST. KLIMENT OHRIDSKI

Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan)





Karlov Universiteti (Çexiya)



Roma Sapienza Universiteti (İtaliya)

Universität
Augsburg
University



Auqsburq Universiteti
(Almaniya)

UNI
FR

UNIVERSITÉ DE FRIBOURG
UNIVERSITÄT FREIBURG

Frayburq Universiteti (İsveçrə)





Erciyes Universiteti (Türkiyə)



Lusofona Universiteti (Portuqaliya)



Qacah Mada Universiteti
(İndoneziya)




Julius-Maximilians-
UNIVERSITÄT
WÜRZBURG

Vürtsburq Universiteti (Almaniya)



Hokkaydo Universiteti (Yaponiya)




Malmo Universiteti (İsveç)




Sri Sri Universiteti (Hindistan)



Uniwersytet Wrocławski

Vroslav Universiteti (Polşa)

# Beynəlxalq Multikulturalizm yay və qış məktəbləri

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirir.









Mərkəzin önəmli layihələrindən artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən "Beynəlxalq multikulturalizm yay və qış məktəbləri"dir. Bu layihə BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır.

Tədris layihəsi çərçivəsində hazırda Azərbaycanın 38, dünyanın isə 19 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan yay və qış məktəblərinin məqsədi həmin gənclərin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı Azərbaycanda əyani şəkildə görüb şahid olmasına şərait yaratmaqdır.

2019-cu ilin yayında artıq IX yay multikulturalizm məktəbi öz işini başa çatdırıb ("Bakı Mədəniyyətlərarası Gənclər Forumu – 2019: Dinlərarası dialoqdan fəaliyyətə doğru" – 15.07.2019–21.07.2019). Ötən 5 il ərzində həyata keçirilən 8 multikulturalizm məktəbinə 100-dən çox xarici ölkədən 400-dən artıq tələbə qatılıb.













- I Beynəlxalq Multikulturalizm yay məktəbi (21.07.2015–01.08.2015) – "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş";
- II Beynəlxalq Multikulturalizm qış məktəbi (08.02.2016-15.02.2016) – "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş - 2016";
- III Beynəlxalq Multikulturalizm yay məktəbi (18.07.2016–27.07.2016) – "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: milli və dini dəyərlər";
- IV Beynəlxalq Multikulturalizm qış məktəbi (13.02.2017–20.02.2017) – "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş";
- V Beynəlxalq Multikulturalizm yay məktəbi (23.07.2017–30.07.2017) – "Azərbaycan–Dini Harmoniya Mərkəzi";
- VI Beynəlxalq Multikulturalizm qış məktəbi (12.02.2018–18.02.2018) – "Sivilizasiyaların dialoqu: yeni çağırışlar";
- VII Beynəlxalq Multikulturalizm yay məktəbi (29.07.2018–09.08.2019) – "Bakı Prosesi 10 il: Mədəniyyətlərarası dialoqun inkişafına töhfə kimi";
- VIII Beynəlxalq Multikulturalizm qış məktəbi (12.02.2019–21.02.2019) – "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları";
- IX Beynəlxalq Multikulturalizm yay məktəbi (15.07.2019–21.07.2019) – "Bakı Mədəniyyətlərarası Gənclər Forumu 2019: Dinlərarası dialoqdan fəaliyyətə doğru".

# “Terror multikulturalizmə qarşı” layihəsi









Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan Milli Elmlər Akademiyası və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə həyata keçirdiyi “Terror multikulturalizmə qarşı” uzunmüddətli layihəsi çərçivəsində Azərbaycanda, eləcə də Avropa ölkələrində silsilə beynəlxalq elmi-praktiki konfranslar, simpoziumlar və forumların keçirilməsi, televiziya proqramları, videoçarxlar və filmlərin çəkilməsi, kitablar, broşürlər, bülletenlər, tarixi sənədlərin xarici dillərdə nəşri nəzərdə tutulur.

Layihə çərçivəsində keçirilən “Azərbaycanlıların soyqırımı – 100” (mart, 2018) və “1918-ci il mart soyqırımı və yəhudilər” (mart, 2019) adlı beynəlxalq elmi konfranslarda azərbaycanlı alimlərlə yanaşı, Maykl Günter (Tennesi Texnologiya Universitetinin Sosiologiya və Siyasi Elmlər fakültəsinin professoru, ABŞ), Georgi Mamulia (Fransa Sosial Tarix Araşdırmaları Mərkəzi, professor, Paris), dr. Əhməd Raşidi (siyasi elmlər doktoru, Mazandaran Universiteti, İran), Oleq Kuznetsov (siyasi analitik, tarix elmləri doktoru, Rusiya), Boris Xarsiyev (İnquşetiya Elmi-Tədqiqat İnstititu etnologiya şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, Rusiya), Ruslan Şevçenko (Moldova Effektiv Siyasət İnstitutunun direktor müavini, professor, Moldova), Yavuz Aslan (Atatürk Universitetinin Tarix kafedrasının professoru, Türkiyə), Piter Teys (Beynəlxalq əlaqələr üzrə ekspert, politoloq, ABŞ), Kemal Çiçek (Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzi Tarix İnstitutunun direktoru, professor, Türkiyə), Anastasiya Baykova (Ukrayna Lvov Universiteti Tarix fakültəsinin dosenti, Ukrayna), dr. Ebubekir Güngör və dr. Qiyas Şükürov (Bozok Universiteti Tarix kafedrasının müəllimləri, Türkiyə) kimi xarici qonaqlar da iştirak ediblər.

Layihənin məqsədi zaman–zaman erməni ekstremistləri tərəfindən Azərbaycan ərazisində yaşayan həmvətənlərimizə – müxtəlif etnik köklərə mənsub xalqlara qarşı törədilən terrorun tarixi, miqyası, acı nəticələri və bundan sonra bu terrorun qarşısının alınması istiqamətində birgə əməkdaşlığın perspektivləri ilə bağlı dünya ictimaiyyətini məlumatlandırmaqdır. Layihə mühüm siyasi-elmi aksiya kimi səciyyələnir.

# Qafqaz Albaniyası







Azərbaycan tarixinin qədim və erkən orta əsrlər dövrünə aid olan Qafqaz Albaniyasının maddi-mədəni irsinin, tarixinin, coğrafiyasının, etnik tərkibinin tədqiqi XIX əsrin birinci yarısından etibarən tədqiqatçıların diqqət mərkəzində olub. Azərbaycan alimləri də bu mövzunun araşdırılmasına öz sanballı töhfələrini veriblər.

Udilərin Azərbaycanın ən qədim etnoslarından biri olması, onların müasir azərbaycanlılarla çoxəsrlik qarşılıqlı təmas və mədəni-iqtisadi əlaqələri Azərbaycan albanşünasları tərəfindən hərtərəfli şəkildə araşdırılıb. Bununla da Azərbaycan albanşünaslığının təməli qoyulub, Qafqaz Albaniyasının tarixi erməni saxtakarlarının əsassız iddialarından qorunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Qafqaz Albaniyasını öyrənirik" layihəsi də Azərbaycan tarixinin Qafqaz Albaniyası səhifəsini, bu mövzu ilə bağlı ölkə alimlərinin əldə etdikləri araşdırma nəticələrini geniş auditoriyaya çatdırmaq, eləcə də əsassız erməni iddialarını ictimailəşdirmək məqsədilə həyata keçirilir.

Bu layihə çərçivəsində mütəmadi olaraq dəyirmi masalar, mühazirələr, təqdimatlar və görüşlər təşkil edilir.




BBC-də Azərbaycan multikulturalizmi mövzusuna həsr olunmuş dəyirmi masa
London, 27 aprel 2015-ci il






"Azərbaycanda və İsveçrədə multikulturalizmin və dünyəviliyin ortaq dəyərləri" adlı beynəlxalq konfrans
Cenevrə, 29 mart 2015-ci il




BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin Los-Ancelesdə fəaliyyət göstərən müxtəlif dini konfessiyaların rəhbərlərindən ibarət nümayəndə heyəti ilə görüşü



Pontifika Selisiani Universitetində "Azərbaycan multikulturalizmi və Qafqaz Albaniyası: udilər" beynəlxalq konfransı
Roma, 21 aprel 2015-ci il





Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr edilən "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda birinci beynəlxalq elmi konfrans çərçivəsində Azərbaycan Dillər Universitetinin və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə Romada tədbir keçirilib.





Almaniya Federativ Respublikasının paytaxtı Berlin şəhərində BBMM, Alman–Azərbaycan Forumu, Azərbaycanın Almaniyadakı səfirliyi və Berlin Humboldt Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Azərbaycan multikulturalizmi: tarixi təcrübələr və gələcəyin cəmiyyət modeli" mövzusunda beynəlxalq konfrans



# BAKI PROSESİ




2008-ci ilin dekabrında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransında İslam və Qərb sivilizasiyaları, eləcə də xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Bakı prosesi" təşəbbüsü irəli sürüldü.

Konfransda "Mədəniyyətlərarası dialoqu təşviq etmək naminə Bakı bəyannaməsi" qəbul edildi.

Ötən 10 il ərzində ölkədə "Bakı prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirildi.

UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və İSESKO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları

BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi "Bakı prosesi"nin tərkibində ayrıca qurum kimi hər zaman fəal iştirak edib, forumlar çərçivəsində dəyirmi masalar və panel sessiyalar keçirib. Bakı Beynəlxalq Humanitar forumlarında "Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğru" (2-3 oktyabr 2014), "Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru" (29 sentyabr 2016), "Multikulturalizm siyasəti cəmiyyətdə sabitliyin təminatı amili kimi" (25-26 oktyabr 2018), eləcə də Ümumdünya Mədəniyyətlər arası Dialoq forumlarında "Multikulturalizm: Gələcək vəd edən həqiqətlər" (18–19 may 2015), "Heydər Əliyev və Azərbaycanda dinlərarası harmoniya" (4–6 may 2017), "Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti" (2-3 may 2019) mövzularında sessiyalar təşkil edilib.

# NƏŞRLƏR

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi multikulturalizm sahəsində aparılan araşdırmaların, eləcə də bu istiqamətdə keçirilən yerli və xarici konfrans materiallarının, dərslik və dərs vəsaitlərinin nəşrini də həyata keçirir:

• "Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası" – I Virtual Dəyirmi masa, 2014;

• "Basatın Təpəgözü öldürdüyü boy"u, 2015

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi görkəmli alman şərqşünası və diplomatı Henrix Fridrix fon Ditsin 1815-ci ildə alman dilinə tərcümə edərək çap etdirdiyi "Basatın Təpəgözü öldürdüyü boy"u 25 dilə (türk, alman, ingilis, fransız, rus, çin, yapon, hind, ərəb, fars, yunan, yəhudi, macar, italyan, ukrayna, həm də Azərbaycanda yaşayan etnik toplumların – xınalıq, tat, kürd, talış, udi, ləzgi, gürcü və s.) çevirərək nəşr edib. Kitabların çapı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi ilə bağlı 2015-ci fevralın 20-də imzaladığı xüsusi Sərəncama əsasən gerçəkləşib;

• "Multikultural Təhlükəsizlik" – II Virtual Dəyirmi masa, 2015;

• "Xarici ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisi: Problemlər və perspektivlər" – III Virtual Dəyirmi masa, 2015;

• "Azərbaycana maraq Azərbaycana məhəbbətə çevrilir" (Azərbaycan Multikulturalizmi yerli və əcnəbi tələbələrin gözü ilə) – IV Virtual Dəyirmi masa, 2015;










• "Alban-Apostol kilsəsi: Tarixi baxış" – VI Dəyirmi masa, 2015;

• "Azərbaycana maraq Azərbaycana məhəbbətə çevrilir" (Azərbaycan multikulturalizmi Beynəlxalq Multikulturalizm Qış məktəbi iştirakçılarının – əcnəbi və yerli tələbələrin gözü ilə) – V Virtual Dəyirmi masa, 2016;

• "Azərbaycan Multikulturalizminin Ədəbi-Bədii Qaynaqları" (Azərbaycan, rus, ingilis dilində nəşri, 2016);

• "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" (Azərbaycan, rus, ingilis dilində nəşri, 2017);

• Mübariz C.Xəlilov. "Albaniyanın tarixi, etno-mədəni hüdudları: Qərb istiqaməti", 2017;

• "Azərbaycan multikulturalizmi" dərsliyi (Azərbaycan, ingilis dilində nəşri, 2017-2018);

• "Terror multikulturalizmə qarşı: "Azərbaycanlıların soyqırımı–100" – VII Dəyirmi masa", 2015/2018.

"2016-cı ilin Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə nəzərdə tutulan tədbirlər planı çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yaradıcılıq Fondunun (AYF) birgə nəşri olan "Multikulturalizm" jurnalı 2016-cı ildən nəşr olunur.

Jurnalın nəşr olunmasında məqsəd Azərbaycanda əsrlərdən bəri formalaşmış tolerantlıq ənənələrini təbliğ etmək, ölkədə hökm sürən multikultural mühitə töhfə verməkdir. "Multikulturalizm" jurnalı öz fəaliyyətini Azərbaycan Prezidentinin müvafiq sərəncamlarında vurğulanmış dəyərlərin qorunub təbliğ olunması istiqamətində qurur.









# “MULTİKULTURALİZM” TELEVİZİYA VERİLİŞİ









2018-ci ilin oktyabr ayından etibarən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan Televiziyası (AzTV) ilə birgə telelayihəsi olan "Multikulturalizm" proqramına başlanılmışdır. Veriliş ayda iki dəfə olmaqla 30 dəqiqə ərzində yayımlanır.

Verilişlərdə BBMM-in fəaliyyəti – görülən işlər, həyata keçirilən layihələrlə yanaşı, bütövlükdə Azərbaycanın multikulturalizm siyasəti öz əksini tapır.

Bu günə qədər media və multikulturalizm, "Azərbaycanlıların soyqırımı", "Tolerantlıq günü", "Bakı prosesi", "VI Bakı Beynəlxalq Humanitar Forumu", "Qafqaz Albaniyası və udilər", həmrəylik, şəhidlik, habelə bir çox digər mövzularda onlarla yerli və xarici qonağın iştirakı ilə verilişlər hazırlanaraq tamaşaçılara təqdim olunub.







# I Bakı Mədəniyyətlərarası Gənclər Forumu








15–21 iyul 2019-cu il tarixlərində baş tutan "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsi çərçivəsində I Beynəlxalq Gənclər Forumu keçirilib. Forum Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Böyük Britaniyada yerləşən "Gənclər Arasında Ümumi Söz" (A Common Word Among the Youth – ACWAY) beynəlxalq təşkilatı və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə gerçəkləşib. 3 gün (15–17 iyul 2019) davam edən Forumda "Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası" adlı plenar sessiya və "Sülh üçün dialoq", "Dinlərarası münasibətlərin müxtəlif platformalarda tətbiqi", "Din və münaqişələrin həlli yolu", "Multikulturalizm siyasəti və Azərbaycan multikulturalizmi modeli", "Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası", "Din, texnologiya və gənclər: Dinlərarası gənclik", "Qarşılıqlı hörmətə əsaslanan mədəniyyətlərarası əlaqə", "Gənclərin mədəniyyətlərarası dialoqda rolu" mövzularında bölmə iclasları keçirilib. Forumda 38 ölkənin – Azərbaycan, Madaqaskar, Mərakeş, ABŞ, Keniya, Çex Respublikası, Almaniya, Meksika, İngiltərə, Kanada, Hindistan, Avstriya, Yaponiya, Polşa, Rusiya, Efiopiya, Braziliya, Macarıstan, Türkiyə, Pakistan, Ruanda, Sudan, Myanma, Əlcəzair, Kamboca, Zambiya, Kamerun, Argentina, İndoneziya, İsveç, Estoniya, Portuqaliya, Xorvatiya, Qazaxıstan, Rumıniya, Ukrayna, İran və Avstraliya kimi ölkələrin aparıcı universitetlərindən 110 tələbə iştirak edib.







# "Azərbaycanın gənc dostları" Beynəlxalq Klubu

"Azərbaycanın gənc dostları" Beynəlxalq Klubu 2016-cı ilin yayında III Beynəlxalq Multikulturalizm Yay məktəbi çərçivəsində yaradılıb və hər il öz ətrafına onlarla gənci toplayaraq sıralarını genişləndirir.

Litva Pedaqoji Universitetinin magistrantı Salomeya Lukaite və Yunanıstanın Amerikan Kollecinin tələbəsi Dimitrios Asproulisin öz təşəbbüsləri ilə yaratdıqları "Azərbaycanın gənc dostları" Beynəlxalq Klubunun üzvlüyündə indiyədək ölkəmizdə təşkil olunmuş beynəlxalq multikulturalizm məktəblərinin xarici tələbələri, eləcə də xarici ölkədəki universitetlərdə Azərbaycan multikulturalizmi fənninin tədris olunduğu fakültələrin dinləyiciləri təmsil olunurlar. Bu klub üzvü olan hər bir xarici gənc üçün Azərbaycanda təhsil imkanları yaratmağı, ölkəmizlə bağlı aparacaqları tədqiqatlarda, eləcə də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsində onlara kömək etməyi nəzərdə tutur.

"Azərbaycanın gənc dostları" Beynəlxalq Klubunun rəsmi internet saytı (www.youngfriends.az) da beynəlxalq gənclər auditoriyasının diqqətini cəlb etməkdədir və ölkəmizin xaricdə gənc intellektual dostlarının sayının artmasına xidmət edir.









FOREIGN POLICY NEWS
NEWS
POLITICS
BUSINESS
ENERGY
SOCIETY
BREAKING NEWS
dential candidates' debate: plenty of insults and no substance
HOME » EUROPE » SHAKI: AZERBAIJAN'S ANCIENT AGORA OF MULTICULTURALISM
The 12th or 13th century Caucasian Albanian church located in the village of Kiş approximately 5 km north of Shaki, Azerbaijan
Shaki: Azerbaijan's ancient agora of multiculturalism


INTERMOUNTAIN JEWISH NEWS
JUNE 21, 2019
The 'Shtisel' mania
Orthodox pack largest Reform temple in NYC
Sellout for the Israeli TV series
Letter from Azerbaijan
Jewish life in the Muslim country flourishes — how's and why's
Mixture of Farsi and Hebrew for the 'Juhuro'
IJN reports from Baku
US: Leave Haifa port Israel-run
Israel hits Iran in Syria preemptively
Sara Netanyahu admits guilt


BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
HAQQIMIZDA
SƏNƏDLƏR
LAYİHƏLƏR
MƏTBUAT XİDMƏTİ
KİTABXANA
ƏLAQƏ
MARK ŞNAYER: AMERİKADA YƏHUDİ İCMASI TƏRƏFİNDƏN ƏN ÇOX SEVİLƏN MÜSƏLMAN ÖLKƏSİ AZƏRBAYCANDIR
05-03-2019
185 Oxunma


BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
HAQQIMIZDA
SƏNƏDLƏR
LAYİHƏLƏR
MƏTBUAT XİDMƏTİ
KİTABXANA
ƏLAQƏ
"INTERMOUNTAİN JEWİSH NEWS" QƏZETİ AZƏRBAYCANDA MULTİKULTURALİZM VƏ TOLERANTLIQ ƏNƏNƏLƏRİNDƏN YAZIR
Xəbərlər, Mərkəz KİV-də
27-05-2019
54 Oxunma
DOWNTOWN BAKU


BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
HAQQIMIZDA SƏNƏDLƏR LAYİHƏLƏR MƏTBUAT XİDMƏTİ KİTABXANA
TOLERANTLIQ VƏ MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ ƏSRLƏRBOYU MÖVCUD OLUB
Mərkəz KİV-də, 26-03-2019 107 Oxunma
толерантность и дипломатия


BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
HAQQIMIZDA SƏNƏDLƏR LAYİHƏLƏR MƏTBUAT XİDMƏTİ KİTABXANA ƏLAQƏ
İTALİYANIN "RADİO ATENE" KANALINDA AZƏRBAYCANDAKI MULTİKULTURALİZM ƏNƏNƏLƏRİNDƏN DANIŞILIB
Mərkəz KİV-də, 16-11-2018 129 Oxunma


BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
HAQQIMIZDA SƏNƏDLƏR LAYİHƏLƏR MƏTBUAT XİDMƏTİ KİTABXANA ƏLAQƏ
İSRAİLİN AKKO ŞƏHƏRİNİN MERİ: AZƏRBAYCAN ƏSL SİVİLİZASİYALARARASI VƏ DİNLƏRARASI DİALOQ NÜMUNƏSİDİR
Mərkəz KİV-də, 15-10-2018 106 Oxunma


BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
HAQQIMIZDA SƏNƏDLƏR LAYİHƏLƏR MƏTBUAT XİDMƏTİ KİTABXANA
AZƏRBAYCAN MULTİKULTURALİZMİ ABŞ MƏTBUATINDA
Mərkəz KİV-də, 03-11-2016 139 Oxunma
Azerbaijani model of multiculturalism

İdeya müəllifləri:
**Kamal Abdullayev**
*BBMM-in Himayaçılər Şurasının sədri, akademik*

**Etibar Nəcəfov**
*Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor*

Nəşrə məsul:
**Rəvan Həsənov**
*BBMM-in icraçı direktoru*

Tərtibçilər:
**Yadigar Məmmədli**
*İnformasiya Təminatı və Sənədlərlə iş şöbəsinin müdiri*

**Tofiq Abbasov**
*Baş məsləhətçi*

**Billurə Aslanqızı**
*Aparıcı məsləhətçi*

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Rafiq Kazımov
Dizayner: Ayaz Abdulzadə
Texniki redaktor: Sevinc Yusifova
Redaktor: Gültəkin Cəfərova
Baş redaktor: Ülkər Məmmədova
Texniki direktor: Xəqani Fərzalıyev
Nəşriyyat direktoru: Sevil İsmayılova

Çapa imzalanmışdır: 23.09.2019. Format: 60×94 $^{1}/_{8}$. Ofset çapı.
Fiziki çap vərəqi 6. Sifariş 19260. Tiraj 300

ŞƏRQ-QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84